# QANLI BAYRAM

*Şəhidlər xiyabanı qərənfillər içində -*
*kimlərin ad günüdü, bu kimin bayramıdı?*
*Matəm heyrətə gəlir izdihamlar keçəndə -*
*adı "Qara" olsa da, millətin bayramıdı!*

*Dumanlı ümman kimi, insanlar dalğalanır,*
*öldüyünü unudub şəhidlər də şadlanır,*
*qələbənin marşını qəhrəmanlar yaradır,*
*milləti birləşdirən matəmin bayramıdı!*

*Cəfakeş Vətənimin "İyirmi Yanvarı" gerçək*
*kirpiklərdə damlalar düzülür sırsıratək,*
*şəhidlik zirvəsində qızıyla fəxr edərək*
*oğluyla qürur duyan*
*nənənin bayramıdı,*
*babanın bayramıdı,*
*dədənin bayramıdı!*

*Şəhərlə kənd qarışıb, izdihamda hamı var,*
*bu Yurdda hər bir kəsin bir "Qara bayramı" var,*
*qatillər unutmasın - ruhun da qiyamı var,*
*"İyirmi Yanvar" dözümü bitənin bayramıdı.*

*Xalq yaşayar, Vətəni həyat kimi sevilsə,*
*qüdrətiylə əsarət, cəhalət devrilirsə,*
*dünənki dəcəl uşaq igidə çevrilirsə -*
*hicran deyil, sevilib-sevənin bayramıdı.*

*Qərənfil çöldən qaçıb mərmərdə solmaq üçün,*
*mərdliyin, igidliyin ətrini almaq üçün,*
*"Qanlı Yanvar" dünyada əbədi qalmaq üçün,*
*ölümə güc gələrək gedənin bayramıdı,*
*başına uca tutsun - Vətənin bayramıdı...*

**Vahid ƏZİZ,**
**Xalq şairi.**